# Şahbaz Xuduoğlu Fransa Mədəniyyət Nazirliyinin mükafatına layiq görülüb



"Qanun" Nəşrlər Evinin rəhbəri Şahbaz Xuduoğlu Fransanın mədəniyyət naziri Roselin Baçelot tərəfindən İncəsənət və Ədəbiyyat Ordeninin Cəngavər rütbəsinə layiq görülüb.

Bu münasibətlə Fransanın Azərbaycandakı səfirliyində tədbir keçirilib.

Ordeni Fransanın Azərbaycandakı səfiri Zakari Qross təqdim edib.

"Səfir çıxışında bildirib ki, "Qanun" nəşriyyatı fransız dili də daxil olmaqla müxtəlif xarici dillərdən Azərbaycan dilinə tərcümələr edib. Həmçinin, xarici əsərlər Azərbaycan dilinə tərcümə olunaraq azərbaycanlı oxuculara çatdırılıb", xəbərdə deyilir.

Şahubaz Xuduoğlu mükafata görə təşəkkürünü bildirib və bunları deyib:

"Bu mükafat həyatımda aldığım çox mötəbər mükafatdı. dramaturq Mirzə Fətəli Axundovun "Müsyö Jordan və Dərviş Məstəli Şah" pyesində Şahbaz bəy Parisə getmək istəyirdi. Dərviş Parisi partlatdı. Şahbaz bəy Parisə gedə bilmədi. Bu gün 170 il keçir həmin tarixdən və deyəsən Paris Şahbaz bəyi dəvət edir" deyə o qeyd edib".

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 23 aprel.- S. 6.**